**Nəriman Bəhram oğlu BÖYÜKKİŞİ**
Azərbaycan Universiteti, i.e.n., dosent
E-mail: nariman.boyukkishi@au.edu.az

**Könül Əmir qızı ƏLİYEVA**
Azərbaycan Universiteti, magistrant
E-mail: konul.aliyeva@student.au.edu.az

# MÜƏSSİSƏLƏRİN MALİYYƏ NƏTİCƏLƏRİNİN İDARƏ EDİLMƏSİ PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

**Xülasə**

Biznesin uğurla idarə edilməsi müəssisənin mövcud vəsaitlərdən və resursları səmərəli idarə etmək qabiliyyətindən asılıdır. Bundan əlavə, o, daxili maraqların təmin edilməsi və xarakterik istehsal funksiyasını yerinə yetirilməsi istiqamətində tədbirlər görmək funksiyasına da malikdir. Menecerlər istehsalın iqtisadi təhlükəsizliyini təmin etməli, müəssisənin perspektivinə təsir edən xarici və daxili təhlükələrə qarşı tədbirlər görməlidirlər. Bundan ötrü mövcud problemlər vaxtında aşkar edilməli və onların əlverişli həlli yolları müəyyənləşdirilməlidir.

Təqdim olunan məqalədə sənaye müəssisələrinin maliyyə nəticələrinin təhlili və idarə edilməsi ilə bağlı mümkün problemlərin praktiki həlli yolları öz əksini tapmışdır.

**Açar sözlər:** maliyyə, idarəetmə, xərclər, planlaşdırma, uçot, büdcə.

JEL: E 00; G 29
**UOT**: 33;330; 336;336.01;336.11; 336.741.28;336.7
**DOI:** https://doi.o 10.54414/GWRA5780

**Giriş**

Müasir şəraitdə müəssisələrin maliyyə-təsərrüfat nəticələrinin təhlilindən aydın olur ki, maliyyə vəziyyətinin pisləşməsi kifayət qədər idarəetmə təcrübəsinin, sistemli idarəetmə üsullarının olmamasıdır. Bu da məntiqi olaraq, istifadə olunan metodların və maliyyə resurslarının səmərəsizliyinə gətirib çıxarır. Ümumiyyətlə, korporativ maliyyə idarəçiliyində mövcud problemlər əsasən fond axınının idarə edilməsi (25%), maliyyə planlarının hazırlanması və büdcə planlaşdırılması (17%), idarəetmə uçotu sisteminin inkişaf etdirilməsi (14%), böhranların idarə edilməsi (10%) və s. təşkil edir.

Maliyyə sektorunda olan çətinliklər digər sahələrlə eynilik təşkil etmir, çünki, o, bilavasitə planlaşdırma, böhranların idarə edilməsi, maliyyə xidmətlərinin təşkilati strukturu, idarəetmə uçotu və s.ilə bağlıdır. Qeyd etmək lazımdır ki, bu məsələlər biznesin ölçüsündən asılı olaraq dəyişir. Pul vəsaitlərinin hərəkəti maliyyə idarəçiliyində mürəkkəb problemlərdəndir. Buna görə də onun qiymətləndirilməsi yalnız müəyyən bir müəssisənin menecerlərini deyil, həm də geniş mütəxəssisləri maraqlandırır. Maliyyə menecmentinin üzləşdiyi çətinliklərdən biri də müəssisənin korporativ idarəetmə, marketinq, qiymət və s. strategiyasının olmamasıdır.

Təbii ki, maliyyə idarəçiliyində yaranan problemlərin tez aşkar edilməsi və qarşısının alınması üçün müxtəlif diaqnostik tədbirlərin həyata keçirilməli, müəssisənin fəaliyyətinin monitorinqi keçirilməli, əldə olunan nəticələr qiymətləndirilməlidir.

**Müəssisədə maliyyə menecmentinin perspektiv istiqamətləri.** Müəssisələrin səmərəli fəaliyyəti çox vacibdir, çünki insanların istehlak mallarına olan tələbatının ödənilməsi yolu ilə işsizlik problemlərinin aradan qaldırılması, iqtisadi sabitliyin təmin edilməsi istiqamətində siyasətin həyata keçirilməsi müəssisələr üçün xüsusi əhəmiyyət kəsb edir. Maliyyə məlumatlarının istifadəçiləri üçün onun cari maliyyə strukturunu əks

etdirən göstəricilərin olması vacibdir. Belə göstəricilər müəssisənin bazar dəyərinin müəyyən edilməsində xüsusi rol oynayır.

Maliyyə-iqtisadi böhran sənaye müəssisələrinin potensialına mənfi təsir göstərir. Beləki, investisiya prosesi və məhsul innovasiyası dayanır, əsas kapital köhnəlir və tükənir, elmi-texnoloji inkişaf tənəzzül dövrünə keçir, ixtisaslı kadrlar və gənc işçilər müəssisələri tərk edirlər. Bütün bazar iştirakçılarının maraqlarını yüksəltmək üçün dövlət tərəfindən makroiqtisadi islahatlar müstəvisində qiymət və pul-kredit siyasətini həyata keçirir, qiymətli kağızlar bazarının inkişafını təmin edir. Yeni ideyaların inkişafı, idarəetmə, nəzarət və planlaşdırma kimi problemlərin müəssisələrin çevik inkişafı olmadan həlli mümkün deyil (Volodin A.A., 2011).Bu baxımdan maliyyə menecmenti perspektivinin əsas aspektlərinə aşağıdakıları aid etmək olar:

• aydın məqsədlərin olmaması və rəhbərliyin öz məsuliyyətlərini dərk etməməsi;

• planlaşdırma və maliyyələşdirmə artıq yuxarıdan aşağı deyil və şirkətlərin özləri tərəfindən idarə olunur;

• əksər müəssisələrdə hüquqi şəxslərə lazımi yerdə və ünvanda etibarlı məlumat verən sistem yoxdur [4,s.32].

Təcrübə göstərir ki, maliyyə sistemi haqqında təfərrüatlı anlayışın olmaması müəssisələrə gəlirlərinin beşdə birinə başa gələ bilər. Bunun üçün heç olmasa ilkin mərhələdə büdcə sistemini qurmaq və həyata keçirmək lazımdır. Korporativ idarəetmə büdcələrin icrasında böyük çətinliklərlə üzləşir. Büdcənin tərtib edilməsinin zəruriliyini hamı başa düşür, lakin bir neçə menecer büdcənin icrasını vaxtında qeydə almır, sabit və standartlaşdırılmış büdcə strukturu haqqında tam və sistemli məlumat əldə etmir. Digər çətinliklərə korporativ daxili büdcələrin icrası daxildir. Menecer büdcəyə ehtiyac olduğunu başa düşürsə, bu, digər işçilərin bu vəzifəyə bağlanması demək deyil, onlar üçün, ilk növbədə, iş yükünün artması deməkdir Büdcələmə prosesi biznesin müxtəlif hissələri arasında gərginliyi azaltmaq və mənfəəti artırmaq üçün rəhbərliyin qarşısında duran strateji məqsədləri müəyyən etməlidir.

Dövriyyə kapitalının idarə edilməsində yaranan məsələlər. Əksər müəssisələrin çətin maliyyə vəziyyəti dövriyyə kapitalının hərəkətindəki çətinliklərlə bağlıdır. Dövriyyə aktivlərinin strukturu və miqyası birbaşa müəssisənin maliyyə vəziyyətini ifadə edən göstəricilərə (ödəmə qabiliyyəti, likvidlik) təsir göstərir. Buna görə də, biznesin likvidliyini, ödəmə qabiliyyətini və maliyyə göstəricilərini yaxşılaşdırmaq üçün səmərəli dövriyyə kapitalının idarə edilməsi sistemi lazımdır[6,s.23].

Korporativ maliyyə fəaliyyətinin idarə edilməsinin keyfiyyətinin yüksəldilməsi strategiyaları maliyyə bazarlarında biznesin aparılması üçün müvafiq maliyyə resurslarının ayrılmasından başlayaraq, bu fəaliyyət sahəsində yeni elmi nəticələrin səmərəli istifadəsini nəzərdə tutur. Yeni maliyyə resurslarının əsas komponentləri uçot prinsiplərinə görə xüsusi kapital alətlərinə, maliyyə öhdəliklərinə, aktivlərə və törəmə maliyyə alətlərinə bölünür. Korporativ maliyyə idarəetməsinin keyfiyyətinin yüksəldilməsi üçün strategiyalar tərtib edilərkən maliyyə bazarında yeni əməliyyatların və yeni bizneslərin səmərəli istifadəsinə böyük diqqət yetirilməlidir. Müəssisənin maliyyə fəaliyyətinin uğuru onun təşkilati təhlükəsizlik sisteminin effektivliyindən çox asılıdır. Maliyyə fəaliyyətinin təşkilati təhlükəsizlik sistemi müəssisə daxilindəki funksional şöbələr ilə strateji maliyyə qərarlarını hazırlayan, formalaşdıran və həyata keçirən və bu qərarların yekun nəticələrinə cavabdeh olan şöbələr arasında qarşılıqlı əlaqələrin məcmusudur. Maliyyə fəaliyyətinin təhlükəsizliyinin təşkili sisteminin əsasını maliyyə fəaliyyətini idarə etmək üçün müəssisə daxilində formalaşan təşkilati struktur təşkil edir. Maliyyə idarəetməsinin təşkilati strukturunun formalaşdırılması prosesində müəssisənin maliyyə fəaliyyətinin miqyası və əsas forması, maliyyənin idarə edilməsi funksiyaları, regional diversifikasiya və s. kimi amillər nəzərə alınmalıdır. Bazar münasibətləri şəraitində pul kütləsinin səmərəli idarə edilməsi təşkilati maliyyə idarəçiliyinin əsas alətinə çevrilir, çünki korporativ fəaliyyətin yekun nəticəsinə aparan əsas yol istehlakdır.Son dövrlər pul vəsaitlərinin hərəkətinin idarə edilməsi sahəsində yol verilmiş ciddi səhvlər səbəbindən ölkə iqtisadiyyatının müxtəlif sahələrində zərərlə işləyən müəssisələrin sayı, bank kreditləri üzrə vaxtı keçmiş borclar, müəssisə və təşkilatlar arasında qarşılıqlı hesablaşmalar xeyli artmışdır. Korporativ səviyyədə pul vəsaitlərinin idarə edilməsi mexanizmini yaratmaq üçün aşağıdakılar planlaşdırılmalıdır:

- ✓ debitor borclarının ödənilməsi müddətinin qısaldılması;
- ✓ likvidlik əmsalının optimal səviyyəyə yüksəldilməsi;
- ✓ sərbəst vəsaitlərdən maliyyə fəaliyyəti məqsədləri üçün istifadə edilməsi;
- ✓ əsas fəaliyyətdən əldə olunan mənfəətin artırılması[3,s.136].

Nəzərə almaq lazımdır ki, inflyasiya təşkilatların maliyyə idarəetmə prosesinə çoxlu çətinliklər gətirən mürəkkəb sosial-iqtisadi proses hesab olunur. İnflyasiya dövrlərində əmək məsrəflərinin və istifadə olunan xammalın maya dəyərinin artması ilə əlaqədar olaraq, müəssisənin rəvan işləməsi üçün tələb olunan vəsaitin həcmi vaxtaşırı artır. İnflyasiya maliyyələşdirmə şərtlərinə, investisiya layihələrinin səmərəliliyinə və layihələrdə şirkətin öz vəsaitləri ilə iştirakına təsir göstərir.

İnflyasiyanın idarə edilməsi gəlirləri sabitləşdirmək və tənzimləmək məqsədi daşıyan bir sıra tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. İnflyasiyanın idarə edilməsi mexanizmi öz səviyyəsinə və xarakterinə, mövcud iqtisadi şəraitə və iqtisadi sistemin gələcək inkişaf xüsusiyyətlərinə görə fərqlənir. Hazırkı şəraitdə mühasibat uçotu maliyyə-təsərrüfat fəaliyyətində baş verən əməliyyatları əks etdirməklə məhdudlaşmamalı, xarici iqtisadi fəaliyyətin təşkilinə və valyuta əməliyyatlarına fəal nəzarəti təmin etməlidir. Mühasibat uçotu sisteminin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri mühasibat uçotu ilə maliyyə uçotu arasında qarşılıqlı əlaqə modelinin formalaşdırılmasıdır.

Azərbaycanda mühasibat uçotu praktikasında “vergi uçotu” anlayışından istifadə olunur, lakin bu anlayış ölkə qanunvericiliyində təsbit edilmir. Buna görə də bəzi qanunvericilik aktlarında yalnız “Gəlir və xərclərin uçotu” termini qəbul edilir.Bütün dünyada peşəkar mühasiblər mühasibat və vergi uçotu sistemlərinin iki modelindən istifadə edirlər: “Continental” və “Anglo-Saxon”. "Continental" modelində mühasibat uçotu və vergi uçotu praktiki olaraq eynidir, halbuki "Anglo-Saxon" modeli mühasibat və vergi uçotunun müxtəlif məqsədlər güdən iki müstəqil sistem kimi eyni vaxtda fəaliyyət göstərməsini təmin edir. Hesab edirik ki, vergitutma bazasının şəffaflığını əldə etmək üçün mühasibat uçotundan əhəmiyyətli şəkildə əlavə məlumat toplamaq lazımdır. Müasir dövrdə xarici və daxili mühitdə baş verən dəyişikliklər haqqında dürüst və dolğun məlumatların toplanması, bu əsasda səmərəli idarəetmə qərarlarının qəbul edilməsi mühasibat uçotunun və maliyyə hesabatlarının müəssisələrə uyğunlaşdırılması üçün son dərəcə vacibdir.

**Nəzarət müəssisələrin maliyyə nəticələrinin idarə edilməsi metodu kimi.** Mühasibat uçotu sahəsində nəzarətin vəzifəsi idarəetmənin müxtəlif səviyyələrində idarəetmə qərarlarının qəbul edilməsi üçün bütün zəruri məlumatları toplayan və emal edən sistemin yaradılmasıdır. Nəzarət həm də planlaşdırma, informasiya təminatı və uyğunlaşma proseslərini əlaqələndirməyə imkan verir. Müstəqil xarici şirkətlərin təcrübəsinə əsasən, biznes fəaliyyətinin düzgün təşkil olunmuş maliyyələşdirilməsi sistemi, o cümlədən, səmərəli əməliyyatları təmin edir. Mülkiyyət hüququ münasibətlərinə görə, adətən, sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsinin üç mənbəyi mövcuddur:

**a.** vəsait toplamaq;
**b.** sahibinin maliyyə imkanları;
**c.** Borc maliyyələşdirilməsi.

Sahibkarın maliyyə resurslarına amortizasiya, xüsusi kapital və depozitlər, sığorta təşkilatlarından ödənişlər daxildir. Borc fondlarına xarici investisiyalar, beynəlxalq maliyyə-investisiya institutlarının vəsaitləri, bank kreditləri və s. aiddir. Hazırda maliyyə menecmenti metodlarının tətbiqi qaydalarının formalaşdırılması müzakirə predmetidir. Maliyyə menecmentindən danışarkən, ilk növbədə istifadə olunan metodlara nəzər salaq. Maliyyə menecmenti biznes məqsədlərinə nail olmaq üçün sistemli yanaşma da daxil olmaqla maliyyə resurslarının idarə edilməsi sistemidir. Ona görə də vurğulamaq lazımdır ki, maliyyə menecmenti idarə olunan sistem kimi idarəetmə obyektlərinin atributlarını ehtiva edir və bəzi mühüm məsələlərin tənzimlənməsini tələb edir. Burada maliyyə menecmenti bir sistem kimi əmək haqqı, məsrəflər, vergilər və s. kimi bəzi mühüm məsələləri özündə cəmləşdirir və ümumi sistemin həyata keçirilməsinə nəzarət və tənzimləmədə xüsusi rol oynayır. Bu funksiyaları yerinə yetirərkən, maliyyə idarəetməsi ayrı-ayrı prinsiplərə əsaslanır. Maliyyə idarəetmə prinsiplərinin müəyyənləşdirilməsi hazırda mühüm metodoloji xüsusiyyət hesab olunur. Bu metodoloji xüsusiyyət maliyyə idarəetməsi fəaliyyətinin is-

tiqamətini və dizaynını müəyyən etmək baxımından xüsusilə vacibdir. Maliyyə menecmenti, onun mövcud üstünlükləri iqtisadi idarəetmənin əsas komponenti kimi nəzərdən keçirilməlidir. Maliyyə sistemi kontekstində və ölkə daxilində yerləşən firmaların idarəetmə təcrübələrini əks etdirir.

Hazırda maliyyə resurslarından istifadə üsulu aşağıdakı məsələlərin həlli baxımından dəyişirlər:

- şirkətin daxili maliyyə siyasətinin istiqamətinin müəyyən edilməsi;
- maliyyə hesabatlarının hazırlanması istiqamətində işgüzar fəaliyyətin reallaşdırılması;
- müəssisənin istehsalat-funksional şöbələrinin informasiya təminatının təşkili [5, s.176].

Xüsusi müəssisələrdə gəlirlərin bölüşdürülməsi və müəyyən məqsədlər üçün istifadəsi prosesində yaranan maliyyə resursları müəssisə səviyyəsində xüsusi pul fondlarının yaranmasının mühüm mənbəyidir. Bu vəzifələr müxtəlif struktur qurumların dövlət büdcəsinə ödəmələri əsasında yaranır.Qeyd etmək lazımdır ki, mənfəət müəssisənin maliyyə resursu və mühüm formalaşma mənbəyidir.

Mənfəət məbləğinin müəssisələrin hesabına çoxaldılması korporativ maliyyə təsərrüfat fəaliyyətinin xüsusiyyətlərini əks etdirir, maliyyə resurslarının artmasına və maliyyə sisteminin daha da möhkəmlənməsinə səbəb olur. Bundan əlavə, müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin nəticələri pul vəsaitləri şəklində, maliyyə-təsərrüfat fəaliyyətindən əldə edilən gəlirlər isə onun sonrakı fəaliyyətində də əks olunur. Bu gəlirin bir hissəsi istehsala, qalan hissəsi isə bütün istehsal fəaliyyəti ilə bağlı xərclərə sərf olunur. Qalan hissə öz növbəsində əmək haqqı ilə bağlı ödənişlərə və ya biznesin bir sıra digər qurumlara borclarına ayrılır və nəhayət, qalan məbləğ biznesin borc kollektorları vasitəsilə qazandığı vəsaitləri əks etdirir.

Hər iki mənbə vasitəsilə yaradılan maliyyə resursları kapital dövriyyəsinin maliyyə şəraitinin müəyyən edilməsində xüsusi rola malikdir. Maliyyələşdirmə üsullarının işlənib hazırlanması üçün zəruri mexanizmlərdən danışarkən ilk növbədə vurğulamaq lazımdır ki, kommersiya fəaliyyətinin maliyyə idarə edilməsində ölkələrin maliyyələşdirmə üsullarından mənfəət əldə etməsinin müxtəlif yolları mövzusu hər bir ölkənin həyata keçirdiyi siyasətdən asılı olaraq fərqlənir.Maliyyə resursları bu istiqamətdə dövlət maliyyələşdirilməsi, korporativ özünümaliyyələşdirmə və investisiya siyasətinə uyğun olaraq investisiya fəaliyyəti o cümlədən xarici vəsaitlərdən istifadənin artırılması xüsusi əhəmiyyət kəsb edir.

Özünümaliyyələşdirmə şəraitində müəssisələr həmişə öz resurslarını maksimum dərəcədə artırmağa və az xərclə maksimum mənfəət əldə etməyə çalışırlar. Dövlət və korporativ maliyyələşdirmənin müxtəlif üsullarından istifadə etmək və bəzi nöqsanların aradan qaldırılması və mövcud problemlərin həlli, inkişaf istiqamətində tədbirlər görmək olar. Maliyyə hesabatı dövründə əldə edilmiş nəticələrin yenidən bölüşdürülməsi əsasında əlavə maliyyələşdirmə prosesi və bununla bağlı göstəricilər sistemi müəssisənin maliyyə vəziyyətini göstərir.

Müəssisənin xüsusi maliyyə resursları müəssisənin yarandığı vaxtdan yaranır və hüquqi kapitalın formalaşması zamanı müəyyən edilir. Səbəb odur ki, müəssisənin müəyyən sahibkarlıq fəaliyyətini həyata keçirməsi üçün müəssisənin özünün maliyyə təminatının olması mühüm şərtdir. Şirkətin keçmiş və indiki maliyyə-təsərrüfat fəaliyyətini, eləcə də gələcəyini proqnozlaşdırmaq üçün istifadə olunan maliyyə planının komponentləri müəyyənləşdirilməlidir. Maliyyə planının hazırlanması biznesin normal fəaliyyətində əsas rol oynayır.Həmçinin burada maliyyə fəaliyyətini göstərmək üçün maliyyə resursları, gəlir, kapital və məxaric proqnozu da müzakirə olunur. Əgər ayrılmış dövriyyə kapitalının dəyəri azalarsa, şirkət gələcəkdə performansını və maliyyə sabitliyini itirmək riski daşıyır. Ona görə də bu prinsip maliyyə-təsərrüfat fəaliyyətinin tənzimlənməsində və dövriyyə vəsaitlərinin bütövlüyünün təmin edilməsində böyük əhəmiyyət kəsb edir.

Qısamüddətli maliyyə mənbələri bir illik istifadədən sonra geri qaytarılır və ya həmin müddətdən sonra dəyərini itirir. Bu növ maliyyələşdirmə mənbəyi əsasən likvid aktivlərin alınmasına, vəsaitlərin cəlb edilməsi üsullarına və vəsaitlərin idarə edilməsinə yönəlmişdir. Bu maliyyə mənbələri qısamüddətli bank kreditləri, kreditlərdən əldə edilən gəlirlər, faktorinq, qısamüddətli qiymətli kağızların satışından gəlirlər və digər qısamüddətli mənbələrdir.

Cari maliyyələşdirmə müəssisələr tərəfindən cari fəaliyyətin təşkili məqsədilə istifadə olunan, əsasən sadə təkrar istehsal üçün zəruri maliyyələşdirmə üsuludur. Şirkətlər əsasən yeni səhmdarlar

cəlb etməklə və əlavə səhmlər buraxmaqla vəsait toplayırlar. Lakin şirkətlər hazırda yalnız borc vəsaitləri hesabına fəaliyyət göstərir və normal gəlir əldə edə bilmirlər. Bunun üçün, yəni normal fəaliyyət üçün əlavə vəsait cəlb etməlidirlər. Şirkət öz vəsaiti ilə maliyyələşirsə, üçüncü şəxslər qarşısında məsuliyyət daşımır. Bu zaman şirkətin direktorlar şurasının qərarı ilə əldə edilən mənfəət yenidən maliyyələşdirməyə yönəldilir.

**Nəticə**

Müəssisələrin fəaliyyəti zamanı maliyyə idarəçiliyinə əsasən maliyyə mənbələrinin müəyyən edilməsi və maliyyələşdirmənin həyata keçirilməsi yolu ilə həyata keçirilir.Müasir dövrdə müəssisənin fəaliyyətinin düzgün aparılması baxımından korporativ maliyyələşdirməyə böyük ehtiyac var. Ona görə də məqsədindən və əldə edilməsi üsulundan asılı olmayaraq, cəlb edilmiş vəsaitlər investisiyalar və investisiyaların maliyyələşdirilməsi kimi təsnifləşdirilir.

Müəssisələr əlavə kapital cəlb etmək üçün kapital maliyyələşdirməsindən istifadə edirlər. Şirkətlərin əlavə səhmlər buraxaraq korporativ maliyyələşdirmə kanallarından istifadə etməsi qısamüddətli vəsait əldə etməsinin effektiv üsulu hesab edilir. Vurğulamaq lazımdır ki, özünümaliyyələşdirmə təkcə müəssisə səviyyəsində deyil, həm də makroiqtisadi və sosial səviyyədə səmərəli şəkildə həyata keçirilə bilər. İqtisadi tənəzzül dövründə özünü maliyyələşdirən şirkətlərin borcları daha az olur, biznesdən çıxmaq və ya müflis olmaq təhlükəsi yoxdur.

Müəssisələrin maliyyə sabitliyini artırmaq üçün kreditorları və debitor borclarını, qısamüddətli və uzunmüddətli maliyyə investisiyalarını effektiv şəkildə idarə etməlidirlər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Məmmədov E.Y. Müasir şəraitdə istehlak malları bazarının formalaşması və inkişafı problemləri. Bakı-2014, 268s
2. Şəkərəliyev A.Ş. Azərbaycanda sahibkarlıq fəaliyyətinin müasir vəziyyəti, onun inkişaf problemləri və perspektivləri”. Məqalələr toplusu.Bakı, 2018, 36-39 s.
3. Ефимова О. В. Финансовый анализ: современный инструментарий для принятия экономических решений: учебник, М.: Омега-Л, 2014, 286с.
4. Колачева Н. В., Быкова Н. Н. Финансовый результат предприятия как объект оценки и анализа. Вестник НГИЭИ. 2015.с.29–35
5. Шеремет А. Д., Негашев Е. В. Методика финансового анализа деятельности коммерческих организаций. М.: ИНФА - М, 2015, 208с.
6. Lazaridis I, Tryfonidis D, 2016. “Relationship between working capital management and profitability of listed companies in the Athens stock exchange”. Journal of Financial Management and Analysis, 19: p.16-25.
7. www.maliyye.gov.az/
8. www.muhasib-az

**Нариман Бахрам оглы БОЮККИШИ**
Университет Азербайджан, доцент

**Кёнуль Амир кызы АЛИЕВА**
Университет Азербайджан, магистрант

# ПРОБЛЕМЫ УПРАВЛЕНИЯ ФИНАНСОВЫМИ РЕЗУЛЬТАТАМИ ПРЕДПРИЯТИЙ И ПУТИ ИХ РЕШЕНИЯ

**Резюме**

Успешное управление бизнесом зависит от имеющихся у компании средств и способности эффективно управлять ресурсами. Кроме того, на него возложена функция принятия мер по обеспечению внутренних интересов и выполнения характерной производственной функции. Руководители должны обеспечить экономическую безопасность производства, принять меры против внешних и внутренних угроз, влияющих на перспективы предприятия. Поэтому существующие проблемы должны быть своевременно обнаружены и определены их благоприятные решения.

Представленная статья содержит практические решения возможных проблем, связанных с анализом и управлением финансовыми результатами промышленных предприятий.

**Ключевые слова:** финансы, управление, затраты, планирование, учет, бюджет.

**Nariman Bahram BOYUKKİSHİ**
Azerbaijan University, associate professor

**Konul Amir ALİYEVA**
Azerbaijan University, graduate student

## PROBLEMS OF MANAGİNG FİNANCİAL RESULTS OF ENTERPRİSES AND WAYS TO SOLVE THEM

**Summary**

Successful business management depends on the company's available funds and ability to manage resources effectively. In addition, he is entrusted with the function of taking measures to ensure internal interests and performing a characteristic production function. Managers must ensure the economic security of production and take measures against external and internal threats affecting the prospects of the enterprise. Therefore, existing problems must be detected in a timely manner and their favorable solutions identified.

The presented article contains practical solutions to possible problems associated with the analysis and management of financial results of industrial enterprises.

**Key words:** finance, management, costs, planning, accounting, budget.